**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№368/9** **30 sentyabr 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının “Fəxri üzv” statusu və “Fəxri auditor” döş nişanı verilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 nömrəli “Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə” Qərarına uyğun olaraq Palata tərəfindən keçirilən tədbirlərdə müntəzəm iştiraklarını, Azərbaycan auditinin inkişafına yönəlik dəyərli təklif və tövsiyələrini nəzərə alaraq, habelə Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfələri olan şəxslərə “Fəxri üzv” statusu və “Fəxri auditor” döş nişanı verilməsi barədə Auditorlar Palatasının İcraçı direktoru (S.Gülməmmədov) tərəfindən hazırlanmış təklifləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfələri olan aşağıdakı şəxslərə Auditorlar Palatasının “Fəxri üzv” statusu və “Fəxri auditor” döş nişanı verilsin:

**“Fəxri üzv” statusu**

- Farrux Rehman – Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti;
- Ali Latif – Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) Şura üzvü;
- Olqa Nosova – Rusiya Federasiyası “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının Baş icraçı direktoru;
- İngrida Puriene – Litva Auditorlar Palatasının vitse-prezidenti;
- Akan Arıstan – Qazaxıstan Respublikası Auditorlar Palatasının icraçı direktoru;
- Maxammad Botirov – Özbəkistanın Fərqanə vilayətinin Auditorlar Palatasının sədri;
- Tata Beridze – Gürcüstan Mühasiblər Birliyinin Baş direktoru.

**“Fəxri auditor” döş nişanı**

- Nadejda Kobozeva – Rusiya Federasiyası “Sodrujestvo” Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının İdarə Heyətinin sədr müavini.

2. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki, iki həftə müddətində “Fəxri üzv” statusu və “Fəxri auditor” döş nişanı verilən şəxslərə Palata Şurasının qərarı barədə məlumat göndərilsin.

3. Auditorlar Palatasının Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 1-ci bəndi ilə əlaqədar təşkilati işləri həyata keçirsin.

4. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) tapşırılsın ki, iki həftə müddətində bu qərarın mətninin, “Fəxri üzv” statusu və “Fəxri auditor” döş nişanı barədə informasiyanın Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**